## VAR MƏNİM



(04. 05. 1994-07. 11. 2020)

*Vətən Müharibəsi Qəhrəmanı, şəhid Nail Nəriman oğlu İbrahimliyə*

Var olasan Vətənim,
Kor olasan düşmənim.
Sanma məni öldürdün,
Bu ruhum yaşar mənim.

Başını heç əyməsin,
Saçına dən dəyməsin,
Mən "ölərəm" onda ki,
Vətənim ağlar mənim.

Qarabağlı nidayla,
Qəm-kədərlə vidayla,
Yaşatsın əks-sədayla,
Adımı dağlar mənim.

Şahiddir döyüşlərə,
Şahid oldu nələrə,
Azad olan Arazım,
Hələ də çağlar mənim.

Şəhid ata, anası,
Şəhid oldu balası,
Şəhidə ağlaması,
Qəlbimi dağlar mənim.

Nailəm, son sözümdür:
"Vətən mənim özümdür,
Ulu Şuşa bizimdir!"
Könlüm çəkib car mənim.

Var olasan Vətənim,
Kor olasan düşmənim.
Biləsən ölməmişəm,
Şəhid adım var mənim.

*22. 07. 2021*

## ŞUŞA T
## ÜRKÜN YURDUDUR!

Şuşa Türkün Yurdudur!
Azad edən ordudur,
Ərdoğan şir duruşlu,
İlhamım Bozqurdudur!

Şuşa nə bəxtiyardır,
Gözəl günləri vardır!
Dirçəliş qarşıdadır,
İndi azad diyardır.

Şuşada bir gün vardı,
Əsilsiz-nəsilsizlər.
Dəmlənib oynayırdı,
Cıdırımda nakəslər.

Şuşada bir gün də var,
O gün hələ də yaşar!
Həmin gün oldu azad,
Qafqazın mirvarisi.
Həmin gün nakəslərin,
Kəsildi murdar səsi.

Budur qolların açıb,
Oynayır türk əreni.
Cıdır düzündə qalıb,
Çək ey igid nərəni!

Burada ulu türk sən,
Sanma burada tək sən.
Azərbaycan sevinər,
Zəfər nərəsi çəksən. .

Hiss etsin qanım, canım,
Təzə-tər nəfəsini.
Azad olan Şuşanın,
Seltək dolub-daşanım.

Nağıl kimi bilirdik,
Çox vaxt xəyal edirdik,
Biz Şuşada olarıq,
Sevinclə oynayarıq.

İndi Cıdır düzündə,
Şanlı Türküm dayanmış!
Mənim xəyal etdiyim,
Nağıl deyil, dastanmış!

Bu günüm deyil həsrət,
Bu günüm olmuş vüsal.
Çal qopuzunu Qorqud,
Şuşada sevinclə çal.

İlham müjdəni verdi,
İlhamla, gülər üzlə.
Azad edcək Xankəndin,
Qayıdacağıq biz də.

Şad ol, ulu Bəxtiyar!
Şad ol, ulu Şəhriyar!
Şad olun, Şəhidlərim!
Sizsiniz sabahlarım,
Bugünlərim, dünənim.

Şuşada biz Sizi də,
Duyacağıq ürəkdən.
Gələcək şəhid adı,
Hər əməl, hər diləkdən.

Yetmişdir arzusuna,
Gülür ona görə can.
Matəmlə yana-yana,
Ölür o ermənistan.

Sevinir Azərbaycan!
Şuşalı Azərbaycan!
Şuşa Türkün yurdudur!
Ərdoğan Bozqurdudur!
İlhamımBozqurdudur!

*16. 06. 2021*

## TÜRKÜNGÜNÜ

Ey Ulular, şadolun,
Bu gün Türkün Günüdür!
Kədərdənazadolun,
Bu gün Türkün Günüdür!

Nur Günəşlə oyanan,
Bayraqlarlaboyanan,
Dualarla nurlanan,
Bu gün Türkün Günüdür!

Azad olub yurd, məkan
Qaytarılıbyağıdan,
Türkün anıdır bu an,
Bu gün Türkün Günüdür!

Fəthlərdən fəthə qaçan,
Əcdadım Nuru Paşam,
Mən Zəfərlə qardaşam,
Bu gün Türkün Günüdür!

Qoy güc alsın Orxonlar,
Əcdadımızdır onlar,
Məni ancaqtürk anlar,
Bu gün Türkün Günüdür!

"İti qovan" tək qovan,
Şanlı Zəfərə çatan,
Sevin, EY AZƏRBAYCAN!
Bu gün Yurdun Günüdür!
Bu gün Türkün Günüdür!

*10.12.2020*

Sevindik Nəsiboğlu –
*8-ci sinif şagirdi, şair-publisist,*